# Prezident İlham Əliyevin regionda sülh və normallaşma strategiyası Böyük Britaniya mətbuatında


The Telegraph

News Sport Business Money Opinion Ukraine Travel Health Lifestyle Culture Puzzles Podcasts

UK news Politics World Donald Trump Health news Defence Science Education Environment Investigations Global

Elin Suleymanov

## With Armenia and Azerbaijan, Trump has proven he can broker peace

It would be fitting if the US President was awarded the Nobel. The prize is partly endowed by funds the founding brothers made in Baku

For over three decades, my country Azerbaijan and our neighbour Armenia have been locked in one of the world's most intractable conflicts. The last 30 years have seen two major conflicts and many smaller skirmishes. During this time, consecutive rounds of peace talks have failed and failed again.

**Böyük Britaniyanın nüfuzlu mətbu orqanlarından biri "The Telegraph"da Prezident İlham Əliyevin rəhbərliyi ilə regionda sülh və normallaşma prosesindəki tarixi nailiyyətlərdən bəhs edən məqalə dərc olunub.**

AZƏRTAC xəbər verir ki, məqalədə ölkəmizin Londondakı səfiri Elin Süleymanov uzun illər davam edən Azərbaycan-Ermənistan münaqişəsinin artıq yeni mərhələyə qədəm qoyduğunu qeyd edib. Bildirib ki, Prezident İlham Əliyevin irəli sürdüyü yol xəritəsi sayəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib, onun uzaqgörən strategiyası bölgədə normallaşma və əməkdaşlıq üçün real zəmin formalaşdırıb.

Məqalədə, həmçinin vurğulanıb ki, Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə imzalanan tarixi sənəd Azərbaycan və Ermənistan arasında yeni səhifə açıb. ABŞ-nin 907-ci düzəlişi ləğv etməsi isə Azərbaycan-ABŞ münasibətlərində yeni dövrün başlanğıcı kimi dəyərləndirilib. Bildirilib ki, SOCAR ilə "ExxonMobil" arasında imzalanan sənəd əməkdaşlığın iqtisadi əsaslarını daha da möhkəmləndirib.

Yazıda eyni zamanda vurğulanır ki, Azərbaycan və Ermənistanın birgə müraciətlə ATƏT-in fəaliyyətsiz Minsk qrupunun ləğvini istəməsi, region xalqlarının öz gələcəklərini kənar diktələrlə deyil, öz iradələri ilə müəyyən etmək əzmini nümayiş etdirir.

Digər diqqətçəkən məqam isə, Donald Trampın Nobel Sülh mükafatına namizədliyinin Azərbaycan və Ermənistan rəhbərləri tərəfindən dəstəklənməsidir. Müəllif bunu simvolik addım kimi dəyərləndirərək yazır ki, Nobel mükafatının Bakıya bağlılığı heç kimin yadından çıxmamalıdır. Vaxtilə Nobel qardaşları məhz Bakıda neftdən əldə etdikləri gəlirlər hesabına bu mükafatı təsis etmişdilər. Bu baxımdan, Trampın Nobel Sülh Mükafatına namizədliyi həm tarixi, həm də mənəvi cəhətdən bölgəmizlə bağlılıq daşıyır.

Məqalənin sonu belə yekunlaşır: "Bu gün Qafqaz xalqları üçün real şans var - düşmənçiliyi arxada qoyaraq əməkdaşlıq və inkişaf yoluna çıxmaq. Prezident İlham Əliyevin strategiyası bölgədə sabitlik, rifah və dayanıqlı gələcək üçün möhkəm təməl yaradır".

Azərbaycan.- 2025.- 19 avqust (№173).- S.5.